

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblәgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 2 (23.644)

*6 yanvar 2021-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də Anar Kərimovu Mədəniyyət naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. Dövlətimizin başçısı qəbulda çıxış edərək Anar Kərimovun bu yüksək etimadı doğruldacağına ümid etdiyini deyib.

Prezident İlham Əliyev Azərbaycan dilinin qorunması, zəngin ədəbiyyatımızın və musiqimizin, xalça sənətinin yaşadılması və təbliği, memarlıq əsərlərimizin, mədəni abidələrimizin, dini abidələrimizin qorunması, UNESCO-Azərbaycan əlaqələrinin inkişafı ilə əlaqədar Mədəniyyət Nazirliyinin üzərinə düşən vəzifələrdən bəhs edib. Ölkəmizin başçısı vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdə mədəni obyektlərin, mədəniyyət ocaqlarının bərpası başlıca vəzifələrdən biridir. Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edən Prezident İlham Əliyev nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla biləcək Şuşada tarixi-dini abidələrin bərpası ilə əlaqədar tapşırıqlar verib.

Dövlətimizin başçısı qeyd edib ki, mədəni irsimizin qorunması, saxlanması, Azərbaycan mədəniyyətinin dünyada təbliği, gənc nəslin Azərbaycan mədəniyyətindən, mədəni irsindən xəbərdar olması və gənclərimizin milli ruhda tərbiyəsi işində Mədəniyyət Nazirliyinin rolu yenidən formalaşdırılmalıdır.

Anar Kərimov göstərilən etimada görə Prezident İlham Əliyevə minnətdarlıq edib.

## Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində dekabr ayının son 15 günü ərzində qərarlar qəbul edilmişdir. Belə ki, 26 dekabr tarixli Qərara uyğun olaraq bir sıra qərarlarda dəyişiklik edilmişdir. Həmin dəyişikliyə əsasən "Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"nda, "Tutulmuş və ya həbs edilmiş şəxslərə tibbi və psixoloji yardım göstərilməsi, habelə onların tibb müəssisələrində saxlanılması Qaydaları"nda dəyişikliklər edilmişdir.

Həmin tarixdə Nazirlər Kabinetinin 215 nömrəli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 noyabr tarixli 73 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nda, eləcə də "Naxçıvan Muxtar Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nda da dəyişiklik edilmişdir.

Bundan başqa, dekabrın 28-də "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin işçilərinin maddi təminatı və sosial müdafiələrinin gücləndirilməsinə dair Qaydalar" təsdiq edilmişdir. Qaydalara əsasən əmək stajı hesablanarkən işçinin tutduğu vəzifədə stajı, əvvəlki vəzifəsindəki stajı, məhkəmə və ya müvafiq səlahiyyətli orqan tərəfindən müəyyən edilmiş məcburi işburaxma dövrü, vəzifəsində staj və sınaq müddəti, vəzifəsinin və əməkhaqqının saxlanılması şərti ilə işçinin işdən ayrıldığı müddət, əmək qabiliyyətinin müvəqqəti itirildiyi müddət və ödənişli məzuniyyət dövrləri nəzərə alınır.

Həmçinin Nazirlər Kabinetinin 28 dekabr tarixli Qərarı ilə "Dövlət müəssisə və təşkilatları tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması ilə əlaqədar Nümunəvi Formalar"ın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 iyul tarixli 73 nömrəli Qərarında dəyişiklik edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

## Tikinti yekunlaşmaq üzrədir



Muxtar respublikamızın nail olduğu sosial-iqtisadi inkişaf bütün bölgələrimizə müasir görkəm gətirib. Bu inkişafı şərtləndirən amillərdən biri də genişmiqyaslı, həyatımızın hər bir sahəsini əhatə edən tikinti-quruculuq tədbirləridir. O da qeyd olunmalıdır ki, ilbəil quruculuq tədbirlərinin həcmi ilə yanaşı, coğrafiyası da genişlənir. Belə tədbirlər Şərur rayonunu da əhatə edib. Son illərdə bölgədə aparılan tikinti-quruculuq işləri rayon sakinlərinə göstərilən dövlət qayğısının ifadəsi olmaqla yanaşı, şərurluların qurub-yaratmaq əzminə də öz təsirini göstərib.

Yeni quruculuq ünvanlarının sırasına Şərur şəhərinin girişində ucaldılan Saat Meydanı da qoşulub. Ümumi sahəsi 2 min 460 kvadratmetr olan ərazidə 10 metr hündürlükdə olacaq Saat qülləsinin inşasını "Gəmiqaya Holdinq" Şirkətləri Qrupu həyata keçirir.

Meydandakı qüllədə şərq və qərb istiqamətlərində olmaqla, iki saat qurulacaq. Tikinti ilə paralel şəkildə ərazidə işıqlandırma sistemi quraşdırılır, su xətti çəkilir.

Layihəyə uyğun əsas işlər tam başa çatdıqdan sonra ətrafda gülkarlıq və yaşıllıq zolağı da salınacaqdır.

Tikinti sahəsində olarkən öyrəndik ki, obyektdə əsas işlər yekunlaşmışdır.

**Telli MƏMMƏDOVA**

## Ümumi daxili məhsul istehsalı iqtisadi inkişafı xarakterizə edən əsas amildir








Ümumi daxili məhsul istehsalı bir ölkənin sərhədləri çərçivəsində müəyyən bir zaman ərzində, əsasən, illik olaraq istehsal edilən son məhsulların və xidmətlərin ümumi məcmusudur. Davamlı inkişaf edən ölkələrin təcrübəsi göstərir ki, ümumi daxili məhsul istehsalında sənaye sahəsi özünün liderliyini qoruyub saxlayır. Bunun da təbii səbəbləri var. Çünki bu gün istifadə olunan ərzaq və qeyri-ərzaq məhsullarının böyük bir qismi sənaye istehsalı mərhələsindən keçdikdən sonra istehlakçıya çatdırılır. Bu, bir tərəfdən həmin məhsulların ilkin formada xammal şəklində olduğuna əsaslanırsa, digər tərəfdən hətta ilkin şəkildə istifadə oluna biləcək ərzaq məhsullarının da çeşidləndirmə, qablaşdırma kimi sənaye proseslərinə cəlb olunması ilə bağlıdır. Yəni kənd təsərrüfatı məhsullarının da böyük bir qismi uzunmüddətli istifadə üçün sənaye istehsalından keçməyə məcbur olur. Buna görə də ümumi daxili məhsul istehsalı iqtisadi inkişafda hansı yeri tutursa, sənayenin də inkişafı ümumi daxili məhsulun formalaşmasında o qədər böyük rol oynayır. Buna görə də hesab olunur ki, sənayenin inkişafına nail olmadan iqtisadiyyatda hər hansı irəliləyişdən söhbət gedə bilməz.

Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən çoxşaxəli iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri sənaye məhsulları istehsalı ilə davamlı inkişafa, o cümlədən yerli istehsal və əmək potensialından səmərəli istifadə etməklə ixracyönümlü məhsul istehsalına nail olmaqdan ibarətdir. Son illərin iqtisadi mənzərəsinə nəzər salsaq, görərik ki, muxtar respublikada uğurla icra olunan müxtəlif istiqamətli Dövlət proqramları, sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən məqsədyönlü layihələr, ailə təsərrüfatlarının inkişaf etdirilməsi, rəqabətqabiliyyətli məhsul istehsal edən yeni müəssisələrin yaradılması özəl sektorun inkişafına, dolayısı ilə yeni növ və çeşiddə məhsul istehsalının stimullaşdırılmasına şərait yaradıb. Görülən işlərin nəticəsidir ki, daxili bazarın tələbatında yerli istehsal məhsullarının həcmi ildən-ilə artır. Təsadüfi deyil ki, hazırda muxtar respublikada yerli istehsal müəssisələri tərəfindən 384 növdə məhsul istehsal olunur. Bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Təbii ki, ərzaq və qeyri-ərzaq məhsullarının növ və çeşidinin artması ümumi daxili məhsul istehsalına da təsir göstərir.

2020-ci ildə pandemiyanın yaratdığı mənfi təsirlərə baxmayaraq, muxtar respublikada əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumi daxili məhsulun həcmi 1,1 faiz artaraq 2 milyard 908 milyon manata yaxın olub. Onun bir nəfərə düşən həcmi 6 min 310 manat təşkil edib. Bu, 2019-cu ildəki göstəricidən 1,8 faiz çoxdur. Ümumi daxili məhsulun 59 faizdən çoxu istehsalın payına düşüb.

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində sənayenin də payı artır və bunu statistik rəqəmlər də təsdiq edir. Belə ki, ötən il ümumi daxili məhsulda ilk yeri tutan sənaye sahəsində məhsul həcmi artaraq 1 milyard 40 milyon 475 min manat olub. Sənayenin dövlət sektorunda 68 milyon 245 min manatlıq, qeyri-dövlət sektorunda 972 milyon 230 min manatlıq məhsul istehsal edilib. Ümumilikdə isə sənaye məhsullarının istehsal həcmi muxtar respublikanın illik ümumi daxili məhsul istehsalının, təxminən, yarısına bərabərdir. Digər xidmət sahələrinin mövcud vəziyyətlə bağlı fəaliyyətini (xüsusilə turizm xidmətlərini) nəzərə alsaq, ümumi daxili məhsul istehsalında əldə olunan artımın daha çox istehsal sahələri üzrə yarandığını əminliklə söyləmək mümkündür.

**Səbuhi HƏSƏNOV**

# Yeni Azərbaycan Partiyası qazandığımız nailiyyətlərdə böyük rolu olan siyasi qüvvədir

## Anar İbrahimov: "Yeni Azərbaycan Partiyasının ideyaları, bütövlükdə, müstəqil Azərbaycanın əsas ideoloji hədəfləri sırasında yer alır"

Ötən əsrin sonlarında müstəqillik əldə etmiş ölkəmizi dərin siyasi, iqtisadi, sosial böhran bürüdüyü bir vaxtda 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Naxçıvana, Heydər Əliyevə müraciət göndərildi. Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olan həmin sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Bu müraciətdə ulu öndər Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu. Dahi şəxsiyyət xalqın müraciətini qəbul etsə də, onun Bakıya gəlməsinə ozamankı hakimiyyətin maneələr yaratması ucbatından partiyanı yaratmaq istəyən insanların bir hissəsi – 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını orada keçirməyə nail oldu.

Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin təmsil olunduğu konfrans 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirildi. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı. Yaradıldığı gündən keçən qısa tarixi dövr onu göstərdi ki, xalqımız Heydər Əliyev ideyaları ətrafında sıx birləşərək bu siyasi xəttin davam etdirilməsinə dəfələrlə səs verdi. Məhz bu ideologiyanın layiqincə davam etdirilməsi nəticəsində Azərbaycan çox böyük uğurlara imza atdı, özünün iqtisadi və siyasi müstəqilliyini möhkəmləndirdi. Bu güc və həmrəylik ölkəmizə illərdir, işğal altında qalan torpaqlarımızın azad olunmasına imkan verdi. Azərbaycan suverenliyini və ərazi bütövlüyünü bərpa etdi. Beləliklə, Yeni Azərbaycan Partiyası və bu partiyanın məqsədyönlü hədəfləri ötən dövrdə Azərbaycanı, sözün həqiqi mənasında, yenidən quran partiya oldu.

Maraqlıdır, ümummilli maraqlara doğru daim irəliləyən və öz hədəflərinə çatan bu ideoloji təşkilatı müasir dövrün konsepsiyası baxımından necə xarakterizə etmək olar? Bu və ya digər suallarımızı Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov cavablandırır:

– Bilirsiniz, istənilən siyasi partiya, ictimai-siyasi hərəkatın ümdə məqsədi inandığı ideyanı, planları reallaşdırmağa nail olmaqdır. Partiyanın digər funksiyaları, məsələn, təmsilçilik, ictimai səfərbərlik, dialoq mühitinin yaradılması, hətta siyasi sistemin konstruksiyasında və sadalamadığımız başqa funksiyalar. Bu reallıqları nəzərə alaraq, qətiyyətlə demək olar ki, Yeni Azərbaycan Partiyası unikal siyasi partiyadır. Məhz bu reallıqlara görə ümummilli liderimiz, partiyanın banisi Heydər Əliyev ***"Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin"*** partiyası kimi dəyərləndirmişdi. Yeni Azərbaycan Partiyası həm xilaskarlıq missiyasını həyata keçirən siyasi qüvvə, həm Azərbaycanın müstəqilliyinin ilk illərində və dövlət institutlarının deqradasiya edildiyi zamandakı oynadığı rola görə sistem yaradan, həm də Azərbaycanın müstəqillik ideyasının, dövlətçiliyinin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün geniş xalq kütlələrini səfərbər edə bilən siyasi təşkilat kimi xarakterizə edilməlidir.

Partiyanın mükəmməl ideologiyası və bu ideologiya ilə xalqla ünsiyyət quran, onu inandıran, arxasınca aparan dahi şəxsiyyət Heydər Əliyev kimi banisi olması qısa zamanda Yeni Azərbaycan Partiyası iqtidar partiyasına çevirdi. Bu gün Yeni Azərbaycan Partiyasının ideyaları, demək olar ki, bütövlükdə, müstəqil Azərbaycanın əsas ideoloji hədəfləri sırasında yer alır. Bu mənada, Yeni Azərbaycan Partiyası həm də siyasi fenomendir.

***– Ümummilli lider Heydər Əliyevin vaxtilə böyük siyasi uzaqgörənliklə Naxçıvanda yaratdığı Yeni Azərbaycan Partiyası özünü tarixin bir sıra mərhələlərində ümummilli məfkurəyə xidmət edən, xalqı öz ətrafında birləşdirə bilən, əsl siyasi həmrəylik nümunəsi göstərən bir partiya kimi təsdiq etdi. Tariximizin bu dövründə Yeni Azərbaycan Partiyasının bu missiyanın öhdəsindən Naxçıvanda necə gəldiyini düşünürsünüz?***

– Yeni Azərbaycan Partiyasını ölkəmizdəki digər siyasi partiyalardan fərqləndirən məqamlar çoxdur, bunlardan biri də 1992-ci ilin siyasi reallıqlarına görə partiyanın mərkəzdə deyil, Azərbaycanın bölgəsində – Naxçıvanda təsis edilməsidir. Partiyanın Naxçıvanda yaranması, onun lideri, xalqımızın xilaskarı Heydər Əliyevin 1991-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi, muxtar dövlətin rəhbəri kimi Naxçıvanı iqtisadi, siyasi böhrandan və Ermənistanın işğalından xilas etməsi partiyanın buradakı nüfuzuna, sözsüz, təsir etmişdir. Yeni Azərbaycan Partiyası həmin dövr Azərbaycan ictimai şüurunda uğurlu layihə, ümid və sabitliklə təcəssüm olunur, bu gözləntilərin görkəmli dövlət xadimi Heydər Əliyev rəhbərliyi ilə, bütövlükdə, ölkədə yayılması arzu edilirdi. Xalqın tələbi ilə 1993-cü ilin iyununda ümummilli liderin Azərbaycanda siyasi hakimiyyətə ikinci qayıdışı bu ümidləri reallığa çevirdi. Naxçıvan Muxtar Respublikasında 1995-ci ildən başlayaraq Heydər Əliyev siyasi kursuna dayanan hərtərəfli inkişaf siyasəti Yeni Azərbaycan Partiyasını daha da gücləndirdi. 1995-ci ilin aprelində təsis edilən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı bu gün muxtar dövlətimizin aparıcı ictimai-siyasi təşkilatıdır. Özünün ətrafında 57 minə yaxın üzvü birləşdirən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təkilatı, bütövlükdə, muxtar respublikada ictimai fəal əhalinin, yəni seçicilərin 18 faizindən çoxunu təşkil edir.

Ötən il Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Siyasi Şurasının iclasında təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Ulu öndərimiz Yeni Azərbaycan Partiyasını yaradarkən qarşıya bir məqsəd qoymuşdu: Azərbaycanın müstəqilliyini qorumaq, Azərbaycanı yaşatmaq və qüdrətli dövlətə çevirmək. Qarşıdakı illərdə də dahi rəhbərin ideyaları əsas fəaliyyət istiqamətimiz olacaqdır. Partiyamızı və ölkəmizi ümummilli liderin yolu ilə aparan dövlət başçısı cənab İlham Əliyevin dediyi kimi: "Bizim siyasətimiz Heydər Əliyev siyasətidir, Heydər Əliyevin qoyduğu yoldur. Bizim dayağımız Azərbaycan xalqıdır və iqtidarın mənbəyi xalqdır. Biz bütün təşəbbüslərdə Azərbaycan xalqının dəstəyinə arxalanırıq. Bizim ideologiyamız Azərbaycançılıq, dövlətçilik, müstəqillik ideologiyasıdır. Bu da bütün cəmiyyəti birləşdirir və biz bu yolla uğurla addımlayırıq"."***

***– Məncə bu məqamda xüsusilə vurğulamaq yerinə düşər ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ötən 25 ildə həm də Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının sədri kimi muxtar respublikamızın hərtərəfli inkişafında böyük xidmətlər göstərmişdir.***

– Ulu öndərin ***"Yeni Azərbaycan Partiyasına xidmət etmək Vətənə, millətə, müstəqil Azərbaycan dövlətinə xidmət etməkdir"*** fikirlərini özünün fəaliyyət istiqamətinə çevirən Ali Məclisin Sədri muxtar diyarımızın tərəqqisinə nail olmuşdur. Muxtar respublikada uğurla həyata keçirilən siyasət, iqtisadi artım, sənayeləşmə, sosial siyasət, həyat səviyyəsinin və keyfiyyətinin yüksəlməsi, insan kapitalının inkişafı və bütün digər sahələrdə uğurlar burada Yeni Azərbaycan Partiyasının nüfuzuna pozitiv təsir edir, əhali YAP-ı özünün siyasi ifadəsinin vasitəsi kimi qəbul edir.

***– Yeni Azərbaycan Partiyasının fəaliyyəti çoxşaxəlidir. Ancaq istərdim, partiyanın dövlət quruculuğu və idarəetmədəki roluna xüsusilə toxunaq.***

– Çox zaman Yeni Azərbaycan Partiyasının fəaliyyətini təhlil etdikdə xilaskarlıq və bu kimi missiyalar mütləq qeyd edilir. Vurğulamaq lazımdır ki, bu heç də siyasi təbliğatın özünəməxsus leksikonu ilə əlaqələndirilməməlidir. Yeni Azərbaycan Partiyasının yarandığı dövrdə alternativ ideya, həll yolları, hazır komanda və siyasi dünyagörüşü ilə ozamankı iqtidara alternativ olaraq ortaya çıxmış və özünü parlamenttipli müxalifət partiyası kimi təqdim etmişdir. Yəni Yeni Azərbaycan Partiyasının yeganə silahı dahi rəhbər Heydər Əliyev kimi arxasında illərin təcrübəsi və real işləri olan güclü lideri və fərqli siyasi gündəliyi idi. Yarandığından bir neçə ay sonra iqtidar partiyasına çevrilən Yeni Azərbaycan Partiyası və onun liderinin fəaliyyəti, xüsusən də dövlət quruculuğu, siyasi sistemin yenidən formalaşdırılması, dünya iqtisadi və siyasi institutları ilə, demək olar ki, sıfırdan yaradılan əlaqələr partiyanı bir növ dövlətçilik məfhumu ilə eyniləşdirdi. Yaxın siyasi tariximizə ekskurs etsək, görərik ki, Azərbaycanda dövlət institutları, məsələn müstəqillik dövrümüzün Konstitusiyası, seçki institutları, məhkəmə-hüquq sistemi, yerli özünüidarəetmə və sair komponentlər məhz Yeni Azərbaycan Partiyasının siyasi təşəbbüslərindən, proqramından irəli gələn siyasi görüşünün reallaşdırılmasının nəticəsidir. Yeni Azərbaycan Partiyasının uzun müddət seçici dəstəyi qazanaraq iqtidar partiyası kimi siyasi səhnədə daim mövcud olması bu dövr ərzində müstəqillik və Azərbaycançılıq ideyaları üzərində formalaşmış gənclik üçün Yeni Azərbaycan Partiyası – dövlət arasındakı sərhədləri bir növ aşılandırmışdır. Bu mənada, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Siyasi Şurasının iclasında təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun da üzərimizə qoyduğu mühüm vəzifələr partiyanın cəmiyyətdə nüfuzunu daha da artırmaq, siyasi dəstəyinin səviyyəsini yüksək səviyyədə saxlamaq, Azərbaycanda baş verən istənilən təşəbbüs və çağırışlara qoşulmaq kimi proseslərdə fəal iştirak etməkdir. Ali Məclisin Sədri demişdir: ***"Ulu öndərimiz deyirdi ki, "Yeni Azərbaycan Partiyası qəlbən ona bağlı olanların partiyasıdır. Yalnız bu yolla biz partiyamızı sağlamlaşdıra, daha da mətinləşdirə, daha da gücləndirə bilərik". Ona görə də hər bir partiya üzvü fəaliyyətini ümumi siyasi xəttə uyğun qurmalı, xüsusilə seçki prosesləri zamanı layiqli namizədlər irəli sürülməlidir. Partiya işinin təşkilində ərazi ilk təşkilatlarının üzərinə mühüm vəzifələr düşür. Hazırda muxtar respublikada 502 ərazi ilk partiya təşkilatı fəaliyyət göstərir. Ərazi ilk təşkilatları üçün lazımi iş şəraiti yaradılıb. Ona görə də yerlərdə vətəndaşlarla işə üstünlük verilməli, həyata keçirilən tədbirlərin mahiyyəti düzgün izah olunmalı, səmərəli təbliğat mexanizmi qurulmalı, tikilənlərə, qurulanlara biganə münasibətin qarşısı alınmalıdır... Yeni Azərbaycan Partiyasının üzvü cəmiyyət və dövlət qarşısındakı məsuliyyətini dərk etməli, işə münasibətdə daim tələbkar olmalı, verilən tapşırıqları vaxtında yerinə yetirməlidir".***

***– Yeni Azərbaycan Partiyası və gənclər. Mənə elə gəlir ki, gənclərlə hər hansı bir siyasi təşkilat arasındakı münasibətlərə ən gözəl nümunəni də elə Yeni Azərbaycan Partiyasının timsalında göstərmək mümkündür.***

– Bu gün Yeni Azərbaycan Partiyası geniş siyasi dəstəyi olan, cəmiyyətdə qəbul edilən siyasi partiyadır. Partiya uzunmüddətli, mən deyərdim ki, strateji hədəflərinə çatmaq üçün yarandığı gündən gəncliyin potensialına güvənmişdir. Təsadüfi deyil ki, partiya üzvlərinin 40 faizindən çoxunu gənclər təşkil edir. Gənclik partiyaya inanır, onu özünün ifadəsində ən optimal siyasi təşkilat qəbul etdiyinə görə YAP-da fəaliyyət göstərir. Yeni Azərbaycan Partiyası həm də onun ətrafında birləşən yüz minlərlə gənc üçün "siyasi məktəb" funksiyasını yerinə yetirməkdədir. Bu gün fəal gəncliyin böyük bir hissəsi patiyanın Gənclər Birliyində fəaliyyət göstərir, həm özünü ifadə edir, həm də gələcəyin fəal vətəndaşı olaraq siyasi bacarıqlarını artırır.

***– Azərbaycanın II Qarabağ müharibəsində tarixi zəfər qazanması böyük hərbi-siyasi qələbə olmaqla yanaşı, həm də Yeni Azərbaycan Partiyasının iqtidarda olan partiya kimi siyasi qələbəsidir. Bunu Azərbaycanda fəaliyyət göstərən digər partiya rəhbərlərinin YAP-ın sədri, cənab İlham Əliyevə ünvanladığı təbriklər də təsdiq edir.***

– Bəli, II Qarabağ, digər ifadə ilə Vətən müharibəsində Azərbaycanın qazandığı qələbə dövlətçiliyimizin tarixində əhəmiyyətli hadisədir. Bu həm də Azərbaycan milli ideyasının – işğal altında olan torpaqlarımızın azad edilməsi, milli suverenliyimizin ölkənin bütün ərazisində bərpasının təntənəsi və qələbəsidir. Bu tarixi qələbənin kökündə, heç şübhəsiz, ümummilli liderin siyasi kursu, ölkə Prezidenti cənab İlham Əliyevin siyasi əzmi dayanır. Ulu öndər Heydər Əliyevin siyasi baxışları ətrafında formalaşan Yeni Azərbaycan Partiyası hər sahədə Vətənimizin inkişaf proqramını hazırlamış və ötən 28 ildə həyata keçirmişdir. Heydər Əliyev irsinin məhsulu olan Yeni Azərbaycan Partiyası özünün proqramında dövlət quruculuğu, milli təhlükəsizlik və iqtisadi inkişaf kimi sahələrlə yanaşı, Azərbaycanın ərazi bütövlüyünün bərpasının da partiyanın strateji hədəfi kimi müəyyənləşdirmişdir. Biz çox sevinirik və fəxr edirik ki, partiyamızın banisi, ulu öndərimizin müəyyənləşdirdiyi bu hədəfə də cənab Prezidentimizin rəhbərliyi ilə çatmışıq, artıq Azərbaycan öz ərazi bütövlüyünü təmin etmişdir.

***– Partiya funksioneri kimi qalib Azərbaycanın bundan sonrakı uğurlarını necə görürsünüz?***

– Ölkə başçısı cənab İlham Əliyev hələ 2003-cü ildə ilk dəfə prezident seçildiyi özünün inaqurasiya mərasimindən gələcək proqramı haqqında bəhs edərkən qeyd etmişdir: ***"Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün Heydər Əliyev siyasəti davam etdirilməlidir"***. Bu illər ərzində qazandığımız uğurların arxasında düşünülmüş siyasət, iqtisadi inkişaf, dünyaya inteqrasiya, milli kimliyin qorunması, güclü Silahlı Qüvvələrin və səmərəli diplomatiyanın yaradılması dayanır. Son qələbəmiz də məhz həmin üstünlüklərimizin məntiqi nəticəsi kimi dəyərləndirilməlidir. Muxtar respublikamız isə son onilliklərdəki misligörünməmiş inkişaf və tərəqqisi ilə Heydər Əliyev siyasətinin təntənəsini nümayiş etdirməklə bu siyasi proseslərin mərkəzindədir.

***– Maraqlı müsahibə üçün çox sağ olun.***

**Gülcamal TAHİROVA**

# Nümunəvi dərslər tədrisin keyfiyyətini artırmışdır

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında" 2015-ci il 14 mart tarixli Sərəncamına əsasən muxtar respublikanın ümumtəhsil məktəblərində ali və orta ixtisas təhsili müəssisələrinin elmi dərəcəsi və elmi adı olan alimlərinin iştirakı ilə nümunəvi dərslər təşkil edilir. Nümunəvi dərslər elmi dərəcəsi olan müəllimlərlə ümumtəhsil müəssisələri arasındakı əlaqələri gücləndirir, şagirdlərdə tədris olunacaq fənlərə qarşı yeni yanaşma aşılayır, onların gələcək peşə seçimlərində düzgün qərar vermələrinə müsbət təsir göstərir.

Ümumtəhsil məktəblərində nümunəvi dərslərin tədrisi Təhsil Nazirliyi tərəfindən verilən qrafikə uyğun olaraq tədris ili ərzində Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Tibb Kolleci və Naxçıvan Dövlət Texniki Kollecinin əməkdaşları tərəfindən ayda bir dəfə elmi dərəcəli müəllimlər tərəfindən aparılır.

Prosesin davamı olaraq cari tədris ilində də oktyabr ayından başlayaraq nümunəvi dərslərin tədrisi davam etdirilir. 2020-ci ilin dekabr ayının sonunadək keçirilən dərslərə nəzər salsaq, AMEA Naxçıvan Bölməsinin əməkdaşları tərəfindən 150, Naxçıvan Dövlət Universitetinin əməkdaşları tərəfindən 463, "Naxçıvan" Universitetinin əməkdaşları tərəfindən 27, Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşları tərəfindən 80, Naxçıvan Tibb Kollecinin əməkdaşları tərəfindən isə 66 saat olmaqla, ümumilikdə, 786 saat nümunəvi dərs tədris edilmişdir.

Sərəncamdan irəli gələn vəzifələrin icrasına uyğun olaraq müxtəlif ixtisaslar üzrə elmi dərəcəyə malik kadrların – elmlər və fəlsəfə doktorlarının vaxtilə təhsil aldıqları ümumtəhsil məktəblərində tədrisə cəlb olunması müəllim-şagird kontingentində doğmalıq hissi ilə yanaşı, tədris mühitində yeni ab-havanın yaranmasına da öz təsirini göstərir. Məktəbin pedaqoji və şagird kontingenti ilə əlaqələrin gücləndirilməsinə, keçilən dərslərin daha da maraqlı təşkil olunmasına geniş imkan yaradan nümunəvi dərslər tədrisdə yeni keyfiyyətlərin qazanılmasına, müəllim və şagirdlərin qarşılıqlı fikir mübadiləsində birgə iştirakına, fərqli dərs mühitinin yaradılmasına mühüm töhfələr vermişdir.

**Ülviyyə HACIYEVA**

# Oxucu məktubları

## Dövlət qayğısı ən böyük təsəllimizdir

***Hörmətli redaksiya!*** Bu məktubu sizə oğul itkisinin ağrı-acısı və həm də böyük qürur hissi ilə yazıram. Eyni zamanda illərdir, həsrətində olduğumuz günə çatmağımıza fərəhlənirəm. Təəssüf ki, heç bir qələbə qurbansız qazanılmır. Oğlum iki ilə yaxın idi ki, Vətənin müdafiəçisi kimi fərəhli bir ad daşıyırdı. Vətən müharibəsi başlayan gündən oraya getməyə can atırdı. Nəhayət, öz istəyi ilə Qarabağa getdi. Orada şəhadət şərbətini içən gün bu xəbər mənə də çatdı. Dünya başıma uçmuşdu. Onun iki azyaşlı övladını gördükcə özümə yer tapa bilmir, nə edəcəyim haqqında düşünürdüm. Axı bir övlada atanın yerini kim verə bilərdi?

Oğlumun cənazəsi gələn günə kimi, ondan sonrakı günlərdə də məni bir an belə, tək qoymayan qohum-əqrəbamın arasında dövlət nümayəndələrini görmək qəlbimə böyük, təskinlik verdi. Oğlumla birlikdə şəhid olan övladlarımızın cənazələrinin Naxçıvana gətirildiyi gün hava limanında Ali Məclis Sədrinin oraya gəlməsi və şəhidləri qarşılayıb onların ruhuna ehtiram göstərməsi əsl vətənpərvərlik nümunəsi idi. Muxtar respublikamızın rəhbəri hər dəfə şəxsən bu tədbirlərdə iştirak edir, Vətən oğullarını qarşılayır, ailələrinin dərdlərinə şərik olur. Həmişə bütün sakinlərə ata qayğısı ilə yanaşan cənab Sədrin əlini öz çiynimizdə hiss etməyimiz bizim övlad acımızı azaltdı. Mən bütün şəhid ailələri adından dövlətimizə minnətdarlığımı bildirirəm.

**Rəhim MƏDƏTOV**
***Şərur rayonu, Çomaxtur kəndi***

## Şəfqət və qayğı yaralarımıza məlhəm, ürəyimizə isə sevinc, qürur bəxş edir

***Salam, hörmətli redaksiya!***

Hərbi formanı geyən gündən bir arzum olub: işğalda olan torpaqlarımızı azad edək, yurdumuzu Vətənimizə qaytaraq. Bu gün bu arzuya çatanlardan biriyəm. Fəxr hissi ilə bu sətirləri yazıram. Artıq 30 ilə yaxın bir zaman idi ki, torpaqlarımız erməni işğalında can verirdi. Harada dünyaya gəlməyimizin, harada böyüyüb boya-başa çatmağımızın fərqi yoxdur. Naxçıvan da bizimdir, Şuşa da, Laçın da, Xocalı da. Əlimizin barmağının hansını kəssək, oradan qan gələcək, – deyirlər. Sözümün canı budur ki, bütöv Azərbaycanımız bizimdir, bölünməz Vətən hamımızındır. Vətənin bu başı, o başı yoxdur. O dərd hamımızın idi, hamımız da birləşib bu yaraya məlhəm olduq. Silahdaşlarımızdan bir neçəsi şəhidlik şərbətini içdi, qazi olanlarımız da az deyil. Mən də Xocavənd istiqamətində gedən döyüşlərdə ağır kəllə-beyin travması almışam. Füzuli rayonunda hospitalda bir müddət müalicə olunduqdan sonra yurduma qayıtdım. Müalicəm başa çatmadığı üçün Naxçıvan Qarnizonu Hərbi Hospitalında və digər səhiyyə müəssisələrində ambulator müayinələrim davam edir. Naxçıvan Diaqnostika Müalicə Mərkəzində də bir çox müayinələrdən keçdim. Orada müasir səhiyyə avadanlıqları müayinələrimizin keyfiyyətlə yerinə yetirilməsinə imkan verdi. Səhiyyə müəssisəsinin bütün işçilərinin bizə qayğı ilə yanaşmaları, sağlamlığımızla maraqlanmaları bizə qürur yaşadır. Vətən uğrunda sağlamlığımızdan keçdiyimiz üçün fəxr edir, göstərilən qayğı dövlətimizə minnətdarlıq hissimizi daha da artırır.

**Rüfət MƏMMƏDZADƏ**
***Babək rayonu, Nehrəm qəsəbəsi***

***Razılıq***

## Kəndimizin yeniləşən, abadlaşan siması ürəyimizi dağa döndərir



***Hörmətli redaksiya!***

Bu məktubu sizə ünvanlamaqda məqsədim bu gün kəndimizdə yaradılan şəraitə görə həm sevincimi sizinlə bölüşmək, həm də qurub-yaradanlara kənd sakinləri adından minnətdarlığımızı bildirməkdir.

Bizim kəndimiz heyvandarlıq və əkinçiliklə məşğul olan zəhmətkeş insanların məskənidir. Lakin uzun müddət burada müasir infrastrukturun olmaması insanların yaşayışını xeyli çətinləşdirirdi. Dövlətimizin qayğısı nəticəsində Qarabürc də firavan günlərinə qovuşdu. Burada 2 mərtəbəli kənd mərkəzi tikilib istifadəyə verilib. Binada polis sahə, baytarlıq məntəqələri, bələdiyyə, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı və poçt bölməsinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Həmçinin kənd mərkəzində insanların sağlamlığının qeydinə qalmaq məqsədilə feldşer-mama məntəqəsi üçün də yer ayrılıb. Kənd mərkəzində göstərilən xidmətlər ürəyimizcədir. Bütün bunlar biz sakinlərə göstərilən diqqət və qayğının nümunəsidir. Yollarımıza baxanda isə insanın ürəyi lap dağa dönür. Çünki bir vaxtlar yolumuzun bərbadlığı səbəbindən əziyyətimiz çox olub. Maşınlarımız kəndə gedib gəlməkdə problemlərlə üzləşirdi. Artıq bu çətinliklər yaşanmır.

Bir vaxtlar evimizə lazım olanı almaq üçün rayon mərkəzinə üz tuturduq. Bu gün kəndimizdə inşa edilərək istifadəmizə verilən xidmət mərkəzində istədiyimiz məhsulları rahatlıqla əldə edə bilirik.

**Asif AĞAYEV**
***Şərur rayonu, Qarabürc kənd sakini***

## Yüksək səviyyəli rabitə və poçt xidmətlərinin yaradılması hər birimizi sevindirir



***Salam, hörmətli redaksiya!***

Bu məktubu sizə Kəngərli rayonundan yazıram. Hamımıza məlumdur ki, muxtar respublikamızın bütün bölgələri kimi, Kəngərli rayonu da hərtərəfli inkişaf dövrünü yaşayır. Yaradıldığı dövrdən ötən müddət ərzində rayonun bütün yaşayış məntəqələri abadlaşdırılmış, yollar yenidən qurulmuş, yeni inzibati və yaşayış binaları tikilərək istifadəyə verilmişdir. Dövlət qurumları üçün tikilən binalarda məqsəd bir tərəfdən işçilər üçün rahat iş şəraitinin yaradılmasıdırsa, digər tərəfdən onların əhaliyə yüksək xidmət göstərməsinin təmin olunmasıdır. Bu fikirləri bu yaxınlarda rayon mərkəzində istifadəyə verilmiş Rabitə Evinin timsalında da söyləmək mümkündür.

Yeni istifadəyə verilmiş binada həm işçilər, həm də bura müraciət edən sakinlər üçün lazımi şərait yaradılmışdır. Burada əhaliyə yüksək səviyyəli poçt və rabitə xidmətləri göstərilir. Poçt bölmələrində abonentlər rahat şəkildə kommunal xərclərin və müxtəlif rüsumların ödənməsini həyata keçirə, burada quraşdırılmış POS-terminallardan istifadə edə bilərlər. O cümlədən burada sığorta və üzvlük haqlarını, dövlət yol polisi cərimələrini də ödəmək mümkündür. Həmçinin poçt bölməsində itmiş əşyaların sahibinə çatdırılması və "Naxtel" müştəri xidmətlərinin yaradılması da biz sakinlər tərəfindən təqdir olunur. Rayon əhalisi üçün yaradılmış belə hərtərəfli şəraitə görə dövlətimizə minnətdarlığımızı bildiririk.

**Səməd SƏMƏDOV**
***Kəngərli rayonu, Qıvraq qəsəbə sakini, Azərbaycan Respublikasının Əməkdar müəllimi***

## Abadlaşan yurd yerlərimiz həm də gələcəyə böyük inam hissi yaşadır

***Hörmətli redaksiya!***



Mən Kəngərli rayonunun Çalxanqala kəndində yaşayıram. Məlum hadisələr dövrü Qərbi Azərbaycandan qaçqın düşərək Naxçıvana pənah gətirmişik. Gəldiyimiz dövrü yaxşı xatırlayıram. Yəni elə bir vaxtda gəlmişdik ki, nəinki Naxçıvanda, bütün Azərbaycanda vəziyyət ağır idi. Bu da mənfur erməni vandallarının Azərbaycana qarşı düşmən münasibətləri ilə bağlı idi. İşıq yox, qaz yox, çörək növbələri isə hamının ən ağrılı yeri idi. Biz də naxçıvanlılara qoşulub bunların nə ilə qurtaracağını gözlədik.

Ulu öndərin Moskvadan Naxçıvana qayıtması hamının ürəyində sabaha inam yaratdı. Bu inam tezliklə doğrulmağa başladı. Həyat yavaş-yavaş öz axarına düşdü. Qərbi Azərbaycandan Naxçıvana gələnlərə də qayğı göstərilməyə başlanıldı. Naxçıvan şəhərində, ayrı-ayrı kəndlərdə evlər tikildi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün digər tədbirlər görüldü.

Yaşadığım Çalxanqala kəndi tamamilə yenidən quruldu. Yenidənqurma çərçivəsində onlarla qaçqın üçün yeni evlər inşa olundu, insanlara qurub-yaratmağa şərait yaradıldı. Neçə illərdir ki, hərtərəfli qayğı şəraitində yaşasaq da, işğal olunmuş torpaqlarımızın nə vaxt geri alınacağı fikri bir ağsaqqal kimi həmişə məni də düşündürürdü. Bu gün "Şükür Allaha", – deyirəm. Ölkə başçımızın qətiyyəti, Ordumuzun şücaəti ilə 30 illik həsrətimizə son qoyuldu. Sevinirəm ki, şanlı Qələbəni mən də gördüm. Arzum odur ki, gələcək nəsil xalqımızın başına gətirilən faciələri bundan sonra ancaq kitablardan oxusun, bu faciələr tarixin arxivində qalsın.

**Bəyməmməd Ağammədov**
***Kəngərli rayonu, Çalxanqala kəndi***

## Təhsilin inkişafı işıqlı gələcəyə zəmanətdir

***Hörmətli redaksiya!***



Muxtar respublikamızda bütün sahələr kimi, təhsil də hərtərəfli qayğı ilə əhatə olunub. Bu gün diyarımızın istənilən rayon mərkəzi və ya kəndlərində möhtəşəm görünüşü və müasir şəraiti ilə ali təhsil ocaqlarının binalarından heç də geri qalmayan, geniş, işıqlı, elektron lövhəli sinif otaqları, laboratoriyalar, fənn kabinələri, kompüter sinifləri, müasir idman zalları olan məktəblər müəllim və şagirdlərin ixtiyarına verilib. Yaradılan şəraitdən səmərəli istifadə edən məzunlarımızın xoş sorağı respublikamızın və dünyanın sayılıb-seçilən universitetlərindən gəlir.

Bütün bunları Culfa rayonunun timsalında da görmək olar. Ötən günlərdə rayon Təhsil Şöbəsi və məktəbdənkənar müəssisələrin fəaliyyətini daha da yaxşılaşdırmaq üçün yeni binanın istifadəyə verilməsi bunun ifadəsidir. Robotexnika və STEAM dərnəkləri üçün quraşdırılmış qurğular isə burada təhsilin keyfiyyətini daha da yüksəldəcək. Bir valideyn, bir müəllim kimi sevincimin həddi-hüdudu yoxdur.

Mənim iki övladım var. Biz valideynlərin ən böyük arzusu övladımızın yaxşı təhsil alması və gələcəkdə Vətəninə layiq bir vətəndaş olmasıdır. Bu arzumuzun reallığa çevrilməsində isə ən böyük dəstəyimiz dövlətimizdir.

Övladlarımdan biri Naxçıvan Dövlət Universitetinin Coğrafiya ixtisası üzrə dördüncü kurs tələbəsidir. Digəri isə hazırda Culfa şəhər 2 nömrəli tam orta məktəbdə təhsil alır. Onun məktəblə yanaşı, məktəbdənkənar dərnəklərdə asudə vaxtlarından səmərəli şəkildə istifadə etməsinin bəhrəsidir ki, test sınaq imtahanlarında yüksək nəticələr göstərir. Buna görə də bir valideyn kimi dövlətimizə minnətdarlığımı bildirirəm.

**Ruhiyyə RZAYEVA**
***Culfa rayonu, Culfa şəhər sakini***

## Sağlamlığımızı öz həkimlərimizə ürəklə etibar edə bilərik

***Hörmətli redaksiya!***

Bu məktubu sizə yazmaqda məqsədim muxtar respublikamızda əhaliyə nümunəvi səhiyyə xidməti göstərən gənc, savadlı həkimlərimizə minnətdarlığımı bildirməkdir.

Bir neçə gün bundan əvvəl 7 yaşlı nəvəm aldığı ağır travma nəticəsində görmə qabiliyyətini tam itirmişdi. Biz onu təcili olaraq Naxçıvan Diaqnostika Müalicə Mərkəzinə çatdırdıq. Burada həkim-oftalmoloq Məhəmməd Vəliyevə müraciət etdik. Çox çətin əməliyyat olmasına baxmayaraq, o, əməliyyatı öz üzərinə götürdü. Uşağın atasının səfərbərliyə cəlb edildiyini öyrəndikdən sonra isə bizdən əməliyyat üçün heç bir məbləğ almadılar. Üstəlik, orada fəaliyyət göstərən bütün tibb işçiləri nəvəmə öz doğmaları kimi qayğı göstərdilər. Bunun özü də böyük vətənpərvərlik, Vətənə xidmətin bir növüdür.



Mən də sizin vasitənizlə onlara minnətdarlıq etməyi özümə borc bildim. O da vurğulanmalıdır ki, bütün bunlar həm də muxtar respublikamızda səhiyyə sahəsinin inkişafına göstərilən diqqət və qayğının nəticəsidir. Belə ki, bu gün xəstəxanalarımızda dünyanın ən məşhur tibbi avadanlıqlarından istifadə olunur. Artıq savadlı və qabiliyyətli gənclərimizə öz elimizdəcə işləyib, öz xalqımıza xidmət etmələri üçün hər cür şərait yaradılıb.

Bu gün hansısa xəstəliyimiz olanda dərdimizə çarə tapmaq üçün başqa yerlərə üz tutmağımıza gərək qalmayıb. Buna görə dövlətimizin qayğısına və bir də peşəkar həkimlərimizə borcluyuq.

**Vaqif ABDULLAYEV**
***Babək rayonu, Çeşməbasar kəndi***

*Əfsanəyə dönən ömürlər*

# Şəhid Emin Sadiqov: – Ana, mən şəhid oldum...

Ey nur üzlü, Vətən sevdalı, zəfər müjdəli, qələbə əzmli şəhidim! İyirmi iki illik ömür kitabını vərəqləmək, səni daha yaxından tanımaq üçün ailəni ziyarətə gəlmişəm. Budur, uğruna canını fəda etdiyin, azadlığına qovuşan torpaqlarımız üzərində vüqarla, təntənə ilə dalğalanan üçrəngli bayrağımızla bəzənən 1998-ci ildə iyulun 21-də dünyaya göz açdığın Şahbuzkənddəki evin kandarı. Böyük həyəcan, məsuliyyət içərisində ehmalca döyürəm qapını. Qarşılayır məni qürur, fəxarət yaşatdığın, "Şəhid anası" adlı müqəddəs zirvəyə ucaltdığın xanım...

*Nigaran nəzərlə baxır qapıya,*
*Könlümü dağlayır şəhid anası*
*Dağ boyda bu yükü çiyinlərində,*
*Şərəflə saxlayır şəhid anası.*

Əziz şəhidim, hər küncü-bucağı, divarları, əşyaları səninlə bağlı şərəfli anlar, həsrətli günlər, doğma, əziz xatirələrlə dolan evin tən ortasında qoyulmuş stol başında əyləşib bir nənə, bir ana, bir də mən. Emin Rəşadət oğlu Sadiqov ünvanlı 22 illik ömür kitabını vərəqləyirik bir-bir. Nələr var bu səhifələrdə, nələr. Nə bir məqaləyə sığar, nə də danışmaqla bitər şərəfli, ləyaqətli, cəsarətli ömür yolun. Xatirələr dil açıb danışır. Deyir, rəhmətlik atanın ən böyük arzusu imiş səni hərbi formada, rütbəli zabit kimi görmək. Hələ sən balaca olanda, həyatı tam dərindən dərk etmədiyin vaxtlarda əlindən tutaraq yolunuzu tez-tez Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyin qarşısından salar, bir növ kənardan da olsa, səni gələcək məktəbinlə tanış edərmiş. Dost-tanışla söhbətində qürurla "Gözümün ağı-qarası olan bircə oğlumun böyüyəndə Hərbi Liseydə oxumasını istəyirəm, Emin balam hərbçi kimi yetişib torpaqlarımızın keşiyində mətinliklə dayanacaq, atasının, anasının fəxrinə çevriləcək" söyləyərmiş...

Deyirlər, hər kəsin taleyi alnına yazılır, alın yazısından qaçmaq olmaz. Bəli, əziz şəhidim, sənin də alnına hərbçi olmaq, atanın arzusunu gerçəkləşdirmək yazılmışdı. Keşməkeşli günlərin isə hələ qabaqda idi, bu şərəfli peşəyə gedən yolda çox çətinliklərə sinə gərməli, çox maneələr aşmalı olacaqdın. Ancaq içindəki Vətən sevgisi, vətənpərvərlik ruhu səni bu yolun son dayanacağınadək aparacaqdı. 11 yaşın olanda üç nəfərdən ibarət ailənizin üzvlərinin sayı daha da azaldı. Atan dünyasını dəyişdi. Gülşad xanım minbir əziyyətə qatlaşaraq qazandığı halal məvacibi ilə böyütdü səni. Bir-birinizə həm ana-oğul, həm də sirdaş, dost, həmdəm oldunuz. Olub-keçənləri bir-birinizdən gizli saxlamaz, dərdsərinizi bir yerdə bölərdiniz. Bax, beləcə, birlik, bərabərlik göstərərək həyatın çətin sınaqlarından üzüağ çıxmağı bacardınız. Məktəbi əla qiymətlərlə oxudun. Müəllimlərinin, şagird yoldaşlarının yaddaşında mehriban, səmimi, dostcanlı, ailə qədri bilən bir uşaq kimi dərin iz buraxdın. İdmana da xüsusi maraq göstərdin, güləş, boks öyrəndin, fiziki hazırlığını gücləndirdin. Və nəhayət, 9-cu sinifdə özünün də böyük maraq və həvəsinlə atanın çoxdankı arzusunu reallığa çevirməyi qarşına məqsəd qoydun. Yolunu Hərbi Liseydən saldın, ardınca da Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini oxudun. 2019-cu ildə leytenant, taqım komandiri olaraq xidmətə yollandın. Təyinatı isə yaşadığın yerdən çox uzağa – Qazax rayonunda yerləşən "N" hərbi hissəyə aldın. Əvvəllər iş üçün ikicə saatlıq harasa yollandığında 3-4 dəfə zəng vurub hal-əhval tutduğun, bir gün belə, ayrı qala bilmədiyin anandan indi uzun zaman ayrı qalmalı olacaq, bəzən günlərlə əlaqə saxlaya bilməyəcəkdin. Ancaq bütün bunları əvvəlcədən götür-qoy etmişdin, doğma anandan ayrı qalsan da, ondan artıq sevdiyin Ana Vətəninə daha yaxın olacaqdın. Bu şərəfli səfərə



çıxanda bu günü düşünüb dediyin sözlər hələ də Gülşad ananın qulaqlarında çınlayır. "Ana, sənin mənim üzərimdə əziyyətlərin çox olub, borcunu heç nə ilə ödəyə bilmərəm, ancaq gün gələcək sənə oğul fəxarəti, qüruru yaşadacağam", – demişdin. Əhdinə xilaf çıxmadın...

Əziz şəhidim, sentyabrın 27-də başlanan haqq-ədalət savaşında sən də iştirak etməyə can atırdın, elə ilk gündən digər vətənpərvər oğullar kimi döyüşə könüllü getmək üçün komandirinə müraciət etmişdin. Nəhayət ki, oktyabrın 11-i gözlədiyin məqam yetişdi. Əsgərlərinlə birgə Füzuli istiqamətində gedən döyüşlərə atıldın. Elə həmin gün evə zəng edəndə, ana, çox şükür istəyimə çatdım, döyüş bölgəsinə yollanıram, nənəmə də salam söylə, özünüzdən muğayat olun, bizə dua edin, – dedin. Ardınca isə uşaqlıqda söylədiyin o sözləri yenidən təkrarladın: Ana, hər zamankı kimi bütün xəbərlərimi birinci məndən eşidəcəksən, İnşallah torpaqlarımızın azad olmasının müjdəsini də tezliklə sənə verəcəyəm.

Əziz şəhidim, bu sözləri deyəndə nə biləydin ki, 44 gün davam edən Vətən müharibəsinin cəmi 15 günü sənin qismətinə yazılıb. Bu müddət ərzində imkan olduqca anandan hal-əhval tutmağa çalışırdın. Oktyabrın 26-sı səhər saatlarında yenə Gülşad anaya zəng gəlmişdi səndən. Budəfəki telefon görüşü əvvəlkilərdən tamamilə fərqlənirdi. Bəli, Uca Yaradan sonuncu dəfə ana və oğula bir-birlərinin səsini eşitməyə icazə verirdi. Çox qısa çəkən telefon söhbətində yenə adətin üzrə ana, məndən nigaran qalma, hər şey yaxşıdır, salamatam, ordumuz irəliləyir, tezliklə zəfər çalacağıq, – dedin. Bəli, müzəffər Ordumuzun Böyük Zəfərinə sayılı günlər, sənin şəhadətinə isə saatlar qalırdı...

Əziz şəhidim, belə bir müdrik deyim var: qəhrəman doğulmurlar, qəhrəman olurlar. Qəhrəmanı yaşadığı zaman, ətrafında cərəyan edən hadisələr, malik olduğu xarakter, ən başlıcası, Vətənə bağlılıq, doğma yurda sevgi hissləri formalaşdırır. Sən də belə qəhrəmanlarımızdan oldun. Və gün gəldi, zaman yetişdi, ürəkli şəkildə, qorxmadan, düşmənin üzərinə yeriyib küräyindən deyil, ürəyindən güllə yarası alaraq şəhidlik məqamına ucaldın. Böyük Qələbəmizə, zəfər yürüşümüzə öz imzanı atdın, xalqımızın qəlbində əbədiyyət məşəli yandırdın, rəşadət, ləyaqət taxtı qurdun. Ancaq hələ missiyan bitməmişdi. Anana şəhid olmağına bağlı xəbəri verməli idin. Axı özün Gülşad anaya hər söhbətində mənim haqqımda xəbəri hər zaman ilk olaraq məndən eşidəcəksən, – deyirdin...

Oktyabrın 28-i. Səhər saatlarıdır. Gülşad ana ötən gün Prezident cənab İlham Əliyevin verdiyi növbəti Qələbə müjdəsi ilə sevincək halda, ürəyindəki "Tezliklə ordumuz qələbə çalsaydı, həm torpaqlarımızın hamısının azadlığını, həm də övladımı görərdim" arzusu ilə evdən çıxıb işə yollanır. Adəti üzrə yenə kəndin mərkəzində dayanan marşrut avtobusuna əyləşir. Yolun yarısında marşrut sürücüsünün telefonuna zəng gəlir. Zəng edən şəxs Gülşad ananın qohumu olduğunu bildirərək sürücüdən onu evə geri göndərməsini xahiş edir. Avtobus dayanır. Sürücünün sözlərindən ürəyinə böyük xof və həyəcan düşən ana, yoxsa oğlum Emindənmi xəbər var? – deyir. Ancaq sürücü narahatlığa heç bir əsasın olmadığını bildirərək onu geri qayıtmağa razı salır. Evə böyük təlaş içində dönən Gülşad ananı qohum-qonşu, Emin yüngül yaralanıb xəstəxanaya yerləşdiriblər, deməklə toxtaxtlıq verməyə çalışırlar. Deyirlər, övlad dara düşəndə, başına bir iş gələndə ananın ürəyinə mütləq damır. Gün ərzində heç bir başqa məlumat ala bilməyən Gülşad ananın da ürəyinə dammışdı, övladı ilə bağlı nə isə bəd xəbərin gələcəyini hiss etmişdi. Bunun üçün də mobil və ev telefonunu söndürür, beyninə dolan qara fikirlərlə evdə aşağı-yuxarı var-gəl edir. Axşam saatlarında yorğunluqdan başını yastığa qoyur və yuxusuna övladı Emin qonaq gəlir:

– Ana, telefonları niyə söndürmüsən?

– Ana qurban, sənin ölüm xəbərini eşitməkdən qorxdum.

–Ana, mən ölməmişəm, mən şəhid oldum, başını dik tut, ağlama. Yadında, sənə demişdim ki, mənim üzərimdə əziyyətlərin çox olub, borcunu heç nə ilə ödəyə bilmərəm, ancaq gün gələcək sənə oğul fəxarəti, qüruru yaşadacağam. Gün həmin bu gündür. Fəxr elə ki, sənin oğlun canı qədər sevdiyi Vətən, torpaq yolunda qurban oldu, İnşallah mən bitirə bilməsəm də, yarımçıq qalan haqq işimizi müzəffər Ordumuz tamamlayacaq.

Ey əziz şəhidim, yəqin çoxdan xəbərin var ki, sənin şəhadətindən günlər sonra 30 illik həsrətimizə son qoyuldu, müzəffər Ordumuz Böyük Qələbə qazandı, qanın yerdə qalmadı, qisasın alındı. Hələ sənə 3 müjdəli xəbər də verim: Şəhadətindən sonra Prezidentimiz cənab İlham Əliyev müvafiq sərəncamlarla səni "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif etdi. Yüzlərlə vətənpərvər oğullarımız kimi sən də qəhrəmanlıq dastanı yazmaqla həm xalqımızın könlündə əbədi taxt qurdun, həm də ananı hər kəsin, qohum-əqrəbanın, iş yoldaşlarının arasında başıuca etdin. Əsgərlərin, hərbçi yoldaşların anana igidliyin, mərdliyin haqqında o qədər dəyərli, gözəl sözlər yazıblar ki, oxuduqca qürurlanmamaq, fəxarət duymamaq mümkün deyil. Gülşad anadan qətiyyən nigaran qalma, qüdrətli dövlətimiz onun firavan yaşayışı üçün nə lazımsa, edəcək. İndi o təkcə sənin deyil, damarında azərbaycanlı qanı axan bütün övladların, mənim, bizim, hər birimizin anasıdır. Şəhadətin mübarək, şəhidim!..

**Nail ƏSGƏROV**

*Türkiyə Qars Qafqaz Universitetinin Xarici əlaqələr bölməsinin müdiri, Qeyri-üzvi kimya kafedrasının müəllimi Hacalı Nəcəfoğlu Naxçıvan Dövlət Universitetinin Kimya və Fizika ixtisaslarının müəllim və tələbələri üçün "Kristalloqrafik naxışlar" mövzusunda vebinar keçib.*

## Türkiyəli professor vebinar keçib



Tədbiri giriş sözü ilə açan universitetin elmi katibi, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məftun İsmayılov Azərbaycanda kristalloqrafiya elminin zəngin və uğurlu inkişaf tarixindən danışıb.

Türkiyəli professor bildirib ki, son illərdə kristalloqrafiya və kristallokimya elminin əhəmiyyəti daha da artıb. Hazırda müasir elm və texnologiyanın elə bir sahəsi yoxdur ki, orada kristallik maddələrdən istifadə olunmasın. Kristallardan nanotexnologiya, ifratkeçirici, yarımkeçirici, lazerlər, dərman maddələri və digər xüsusi əhəmiyyət kəsb edən sahələrdə istifadə olunur. Vurğulanıb ki, müasir tələbatlara cavab verən cihazların hazırlanmasını kristallarsız təsəvvür etmək olmaz. Müasir kristalloqrafiya və kristallokimya, ilk növbədə, simmetriya haqqında təlimlə başlayır. Bu təlim təbiətşünaslıq elmləri – geologiya, kimya, fizika, biologiya, riyaziyyat sahəsində forma, quruluş, sistemlər arasında oxşar və fərqli cəhətləri aşkarlamaq üçün ümumi qanunauyğunluqların müəyyənləşdirilməsində geniş istifadə olunur.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi**

## Yeni ilin ilk körpəsi

Naxçıvanda yeni ilin ilk doğumu saat 00:48-də Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində qeydə alınıb. Naxçıvan şəhər sakini Təhməz Ağasoyun ailəsində dünyaya gələn oğlan uşağının çəkisi 3,5 kiloqramdır. Ana və körpənin vəziyyəti normaldır.



Qeyd edək ki, ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosial yönümlü siyasətinin prioritet istiqamətlərindən biridir. Son illər muxtar respublikamızda bu sahədə mühüm tədbirlər həyata keçirilib, ana və uşaqlara tibb xidməti göstərən müəssisələrin maddi-texniki bazası möhkəmləndirilib, dərman preparatları və tibbi texnika ilə təminatı yaxşılaşdırılıb. Hazırda reproduktiv sağlamlıq və ailə planlaşdırılması problemlərinə nəzarət daha da gücləndirilib, səhiyyə-maarifi işləri günün tələbləri səviyyəsində qurulub. Sosial-iqtisadi sahədə əldə edilmiş uğurlar, sabitlik və təhlükəsizliyin təmin edilməsi muxtar respublikada məskunlaşmanın və əhali rifahının yaxşılaşmasına öz təsirini göstərmiş, muxtar respublika əhalisinin sayı artaraq 462 min nəfərə yaxın olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## 2021-ci ilin nəfis təqvimi nəşr edilib



*Muxtar respublikada nəşriyyat işinin müasir tələblər səviyyəsində qurulması diqqət mərkəzində saxlanılır.*

Son illərdə bu sahədə görülən işlər çərçivəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ən müasir çap avadanlıqları hesabına günün tələbləri səviyyəsində tərtibat özünəməxsusluğu və poliqrafik keyfiyyəti ilə seçilən nəşrlər həyata keçirilir. Bu günlərdə nəşr olunan, dizayn və fərqli tərtibatı ilə gözoxşayan 2021-ci ilin təqvimi də xüsusi maraqla qarşılanıb.

Təqvimin dizayn və tərtibatında muxtar respublikanın tarixi və mədəniyyət abidələri, ilin fəsillərinə uyğun təbiət mənzərələri və əlamətdar günlərin yer aldığı fotolar öz əksini tapıb. Təqvimi "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyindən və dəftərxana ləvazimatları satılan mağazalardan əldə etmək olar.

## Biotexniki tədbirlər diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Şahbuz Dövlət Təbiət Qoruğunda çöl heyvanlarının kompleks məskunlaşdığı ərazilərdə və miqrasiya dəhlizlərində biotexniki tədbir keçiriblər.



Əsrarəngiz təbiəti ilə seçilən, 3139 hektar ərazisi olan Şahbuz Dövlət Təbiət Qoruğu zəngin fauna və floraya malikdir. Qış aylarında bu ərazilərdə çöl heyvanlarının qidaya olan tələbatı daha da artır. Bu isə heyvanların alternativ qida mənbələri axtarmasına, bəzən də miqrasiyasına səbəb olur. Bunu nəzərə alan muxtar respublikanın Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Şahbuz Dövlət Təbiət Qoruğunun əməkdaşları yabanı faunanın qida tələbatını qismən ödəmək üçün ərazilərdə biotexniki tədbirlər həyata keçirirlər. Bu məqsədlə Zərnətün çayı boyunca dağ yamaclarında çöl heyvanlarının daha çox məskunlaşdığı ərazilərə qaba yem səpilib və daşduz qoyulub.

Fauna ehtiyatlarının mühafizəsi və artırılması məsələsini daim diqqət mərkəzində saxlayan nazirlik biotexniki tədbirləri bundan sonra da davam etdirəcək.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 6